N 73
10.10.2018

# ƏMR

**"Uşaqların icbari dispanserizasiyası işinin gücləndirilməsi barədə"**

"Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı" çərçivəsində uşaqlara tibbi yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, onların müasir tibbi texnika və avadanlıqlarla təchiz edilməsi, yeni tibbi texnologiyaların tətbiqi, tibbi kadrların peşə səviyyəsinin artırılması və əhali arasında geniş maarifləndirmə işinin aparılması istiqamətlərində mühüm tədbirlər həyata keçirilmişdir. Həyata keçirilən tədbirlər uşaqlar arasında xəstələnmənin, sağlamlıq imkanları məhdudluğunun və ölümün səviyyəsinin azaldılmasına imkan vermişdir.

Bununla belə, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti şöbəsi tərəfindən "Uşaqların İcbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 aprel tarixli 861 nömrəli Fərmanının və 2013-cü il 10 dekabr tarixli 150 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2013-2017-ci illər üçün Dövlət Proqramı"nın icra vəziyyətinə dair hazırlanmış arayışda bu sahədə müəyyən nöqsan və çatışmazlıqların olması qeyd olunmuşdur.

Qeyd olunanlarla əlaqədar uşaqların icbari dispanserizasiyadan keçirilməsi işinin gücləndirilməsi, habelə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 avqust tarixli 393 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədi ilə "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini rəhbər tutaraq

## ƏMR EDİRƏM:

1. "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Tədbirlər Planında qeyd olunan icraçı qurumların rəhbərlərinə tapşırılsın ki, müəyyən olunmuş müddət ərzində Tədbirlər Planında nəzərdə tutulan tapşırıqların

həyata keçirilməsi təmin edilsin və görülən işlər barədə məlumatlar hər yarımilliyin sonunda Tibbi yardımın təşkili şöbəsinə təqdim edilsin.

3. İnformatika və Statistika İdarəsinin rəisi Ş.Xasiyevə tapşırılsın ki, dispanserizasiya ilə bağlı statistik məlumatların toplanması, uçot və qeydiyyatının aparılması sisteminin təkmilləşdirilməsi təmin edilsin.

4. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C.Əsəd-zadəyə tapşırılsın ki, dispanserizasiya üzrə vahid elektron məlumatlandırma sisteminin təkmilləşdirilməsi və mövcud məlumat bazaları və registrlərlə qarşılıqlı inteqrasiyasının yaradılması təmin edilsin.

5. Hüquq və daxili nəzarət sektorunun müdiri E.Əzizova tapşırılsın ki, dispanserizasiyanın həyata keçirilməsi ilə əlaqədar qanunvericiliyin tələblərini pozan şəxslər barədə inzibati məsuliyyət tədbirlərinin görülməsi üçün ərazi tibb idarə və müəssisələrə metodiki yardım göstərilsin.

6. Elmi Tədqiqat Pediatriya İnstitutunun direktoru N.Quliyevə və Respublika Uşaq Klinik Xəstəxanasının baş həkimi N.Qasımovaya tapşırılsın ki, uşaqlar arasında xəstəliklərin profilaktikası, diaqnostikası və müalicəsi ilə bağlı tədbirlərin gücləndirilməsi, habelə xəstəliklər aşkar olunmuş uşaqlar üzərində dispanser nəzarətinin təmin edilməsi məqsədi ilə tədbirlər görülsün.

7. İctimai Səhiyyə və İslahatlar Mərkəzininin direktoru Q.Haqverdiyevə tapşırılsın ki, icbari dispanserizasiyanın nəticələrini təhlil edilərək məlumatların hazırlanması və əhalinin tibbi savadının yüksəldilməsi üzrə geniş maarifləndirmə işinin aparılması, habelə dispanserizasiyanın icbari olması barədə valideynlərin məlumatlandırılması təmin edilsin.

8. Əmrin icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**

*Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin*
*10.10.2018 tarixli 73 nömrəli əmri ilə təsdiq edilmişdir*

**“ Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin**

**TƏDBİRLƏR PLANI**

| № | Tədbirlər | Görülən işlər | İcra müddəti | İcraçı orqanlar |
|---|---|---|---|---|
| **1. Dövlət Proqramının həyata keçirilməsi üzrə təşkilatı tədbirlər** | | | | |
| 1.1 (5.1.1) | İcbari dispanserizasiya ilə əhatə olunmuş uşaqların qeydiyyatının aparılması | Dispanserizasiyaya cəlb olunan uşaqların elektron qeydiyyatının mövcud vəziyyətinin təhlili və təkmilləşdirilməsi üçün təkliflərin hazırlanması | 2018-2022 | TYTŞ, İSİ, İSİM, SİM, ETPİ, RUKX |
| | | Dispanserizasiyadan kənar qalmış uşaqların dispanserizasiyaya cəlb edilməsi və uçot və qeydiyyatının təkmilləşdirilməsi | 2018-2019 | TYTŞ, İSİ, İSİM, SİM, ETPİ, RUKX |
| | | Dispanserizasiyaya cəlb olunan uşaqların elektron qeydiyyatı sisteminin təkmilləşdirilməsi | 2018-2019 | İSİ, SİM |
| | | Dispanser qeydiyyata götürülmüş uşaqların dinamik müşahidəsinin təmin edilməsi məqsədilə “Vətəndaşların Elektron Sağlamlıq Kart Sistemi”nin təkmilləşdirilməsi | 2018-2019 | SİM |
| 1.2 (5.1.2) | Dispanserizasiya zamanı aparılmış müayinə və müalicə-sağlamlaşdırıcı tədbirlərin elektron qeydiyyatının aparılması | Dispanserizasiya zamanı aparılan müayinə və müalicə-sağlamlaşdırıcı tədbirlərin beynəlxalq təsnifat sistemi üzrə kodlaşdırılması və “Vətəndaşların Elektron Sağlamlıq Kart Sistemi”nə qeydiyyatının təmin edilməsi | 2018-2022 | TYTŞ, SİM |
| 1.3 (5.1.3) | Dispanserizasiya ilə əhatə olunan uşaqların registrinin təkmilləşdirilməsi | Registrdə cəmlənən məlumatların parametrlərinin müəyyən edilməsi və ildə bir dəfə təhlili | 2018-2020 | SİM, İSİM |
| | | Dispanserizasiya ilə əhatə olunan uşaqların registrin işinin təkmilləşdirilməsi məqsədilə ambulator-poliklinik müəssisələr tərəfindən dispanserizasiyadan keçirilmiş, sağlamlıq qruplarına bölünmüş, dispanser qeydiyyatda alınmış və qeydiyyatdan çıxarılmış uşaqlara dair məlumatların toplanması imkanlarının yaradılması | 2018-2019 | SİM, İSİM |

| | | | | |
|---|---|---|---|---|
| **2. Tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi** | | | | |
| 2.1 (5.2.1) | Uşaqlara tibbi xidmətlər göstərən ilkin səhiyyə müəssisələrinin lazımi avadanlıq, laborator və tibbi ləvazimatlarla, eləcə də kompüter texnikası ilə davamlı təchiz edilməsi | Respublikanın bütün şəhər və rayon səhiyyə müəssisələrinin zəruri tibbi avadanlıq (boy və çəkini təyin edən elektron cihaz, döş qəfəsi çevrəsinin təyin edilməsi üçün lent, arterial təzyiqin ölçülməsi üçün elktron monometr, görmə qabiliyyətinin təyin edilməsi üçün elektron cədvəl, eşitmə qabiliyyətnin təyin edilməsi üçün audiometr, plantoqraf ,spirometr, əl dinomometri, portativ ultrasəs aparatı, portativ flüoroqraf, elektrokardioqraf və s.), laborator və tibbi ləvazimatlara (striplər, testlər və reaktivlər, müasir sterilizatorlar), eləcə də kompüter texnikasına olan ehtiyacın müəyyən edilməsi | 2018-2019 | TYTŞ, İTM |
| | | Ehtiyaca uyğun olaraq, şəhər və rayon tibb müəssisələrinin müvafiq tibbi avadanlıq, laborator və tibbi ləvazimatlarla təchiz edilməsi | 2019-2022 | TYTŞ, İTM |
| **3. Uşaqlar arasında yayılan xəstəliklərin profilaktikası, müalicəsi və reabilitasiyası** | | | | |
| 3.1 (5.3.1) | Uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi və qiymətləndirilməsi | Dispanserizasiya çərçivəsində uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyət indikatorlarının beynəlxalq tövsiyələrə uyğun təkmilləşdirilməsi | 2018-2019 | TYTŞ, ETPİ, RUKX, SİM, İSİM |
| | | Dispanserizasiyaya cəlb olunmuş uşaqlara dair vahid registr və VESKS proqramından istifadə edərək, dispanserizasiya prosesinin dinamik monitorinqinin aparılması və yarımillik hesabatların tərtib edilməsi | Hər il | İSİM, ETPİ, RUX |
| | | Şəhər və rayonlarda aparılan dispanserizasiya tədbirlərinin keyfiyyəti və səmərəliyinin qiymətləndirilməsi üçün uşaqlar, valideynlər və tibbi işçiləri arasında sorğuların keçirilməsi və nəticələr əsasında səmərələşdirici təkliflərin hazırlanması | Hər il | İSİM, ETPİ, RUKX |
| 3.2 (5.3.2) | Uşaqlarda təcili və təxirəsalınmaz vəziyyətlərin yaranmasına səbəb olan (ürək-damar, tənəffüs | Aparılan monitorinq və qiymətləndirmə əsasında il ərzində uşaqlar arasında təcili və təxirəsalınmaz vəziyyətlərə səbəb olan xəstəliklərin müəyyən edilməsi, onların risk faktorları və törədici səbəblərinin öyrənilməsi | Hər il | ETPİ, RUKX, İSİM |

| | | | | |
|---|---|---|---|---|
| | çatışmazlıqları və s.) xəstəliklər üzrə metodik sənədlərin və müalicə-diaqnostika alqoritmlərinin işlənilib hazırlanması | Müvafiq beynəlxalq tibb cəmiyyətləri və ÜST-nin tövsiyələrinə əsaslanaraq, təcili və təxirəsalınmaz vəziyyətlərə səbəb olan xəstəliklərin profilaktikası, diaqnostika və müalicəsi, habelə dispanser müşahidəsi üzrə metodik tövsiyələr, klinik təlimatlar və alqoritmlərin işlənib hazırlanması | 2019-2020 | ETPİ, RUKX, İSİM |
| 3.3 (5.3.3) | Xəstə və xəstələnmə riski olan uşaqların sanatoriya və bərpa müalicəsinin təşkili | Dispanser qeydiyyatda olan və xəstələnmə riski yüksək olan uşaqların sanatoriya və bərpa müalicəsinin təşkili məqsədilə nazirliklərarası işçi qrupun yaradılması və həmin uşaqların bu tip müalicəyə göndərilməsi mezanizmlərinə dair normativ sənədlərin hazırlanması və razılaşdırılması | 2018-2019 | TYTŞ, RUKX, ETPİ, ADHTİ |
| | | Səhiyyə Nazirliyinin tabeliyində olan sanatoriya və bərpa müalicəsi müəssisələrinin maddi texniki bazasının gücləndirilməsi (zəruri avadanlıqlarla təchizat, təmir bərpa işləri) məqsədilə ehtiyaclarının araşdırılması | 2019-2022 | TYTŞ, BBSİ, İSİM, RUKX, ETPİ |
| | | Xəstə və xəstələnmə riski olan uşaqların sanatoriya və bərpa müalicəsinin təşkili üzrə beynəlxalq təcrübəyə əsaslanaraq metodik tövsiyələrin işlənib hazırlanması | 2018-2019 | TYTŞ, BBSİ, İSİM, RUKX, ETPİ |
| | | Xəstə və xəstələnmə riski olan uşaqların sanatoriya və bərpa müalicəsinə göndərilmiş uşaqların vahid registrdə uçotu və qeydiyyatının təmin edilməsi | 2019-2022 | TYTŞ, BBSİ, RUKX, ETPİ, SİM, İSİ |
| 3.4 (5.3.4) | Uşaqlara göstərilən tibbi xidmətin həcminin və keyfiyyət standartlarının beynəlxalq tələblərə uyğunlaşdırılması | Uşaqlara göstərilən tibbi xidmətin həcminin və keyfiyyət standartlarının təkmilləşdirilməsi məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi, beynəlxalq tibb cəmiyyətləri və ÜST-nin tövsiyələrinin təhlili | 2018-2022 | TYTŞ, ETPİ, RUKX, İSİM |
| | | Şəkərli diabet, böyrək çatışmazlığı, qanyaradıcı orqan xəstəlikləri (hemofiliya, talassemiya, bədxassəli qan xəstəlikləri), sümük-əzələ xəstəlikləri, göz xəstəlikləri, infeksion xəstəlikləri (vərəm, rotavirus, İİV, viruslu hepatitlər), ürək-damar xəstəlikləri (anadangəlmə ürək qüsurları, revmatik ürək patologiyaları), psixi pozuntulardan əziyyət çəkən uşaqlara göstərilən tibbi yardımın həcminin müəyyən edilməsi və keyfiyyət standartlarının beynəlxalq standartlara uyğunlaşdırılması | 2018-2022 | TYTŞ, İSİM, ETPİ, RUKX, ACXİ |

| | | | | |
|---|---|---|---|---|
| 3.5 (5.3.5) | Çətin həyat şəraitində olan xəstə və xəstələnmə riski olan uşaqların sosial xidmət müəssisələrinə yerləşdirilməsi və müalicəsinin təşkili | Sosial xidmət müəssisələrinə yerləşdirilmiş çətin həyat şəraitində olan xəstə və xəstələnmə riski olan uşaqların müalicəsinin təşkili məqsədilə müvafiq sosial xidmət müəssisələri ilə tibb müəssisələri arasında əlaqələndirmə və məlumat mübadiləsi sisteminin qurulması | 2018-2019 | TYTŞ, BBSİ, İSİM |
| | | Sosial xidmət müəssisələrinə yerləşdirilmiş çətin həyat şəraitində olan xəstə və xəstələnmə riski olan uşaqların müalicəsinin təşkili məqsədilə həmin uşaqların ərazi üzrə tibb müəssisələri tərəfindən vahid registrə qeydiyyata alınması və müalicəsinin təmin edilməsi | 2018-2022 | TYTŞ, İSİM, ETPİ |
| 3.6 (5.3.6) | Dispanserizasiya məqsədi ilə aparılan tibbi müayinələr zamanı aşkar edilən xəstə uşaqların ixtisaslaşdırılmış tibb müəssisələrində müalicəsinin həyata keçirilməsi | Dispanserizasiya zamanı aşkar edilən xəstə uşaqların ixtisaslaşdırılmış tibb müəssisələrində müalicəsinin həyata keçirilməsi üzrə müvafiq metodik göstərişləri hazırlanması və göndərişlərin elektron qeydiyyatının təmin edilməsi | 2018-2022 | TYTŞ, İSİM, SİM, RUX, ETPİ, RGEM |
| 3.7 (5.3.7) | Qurd invaziyasına görə məktəbəqədər təhsil müəssisələrində və məktəblərdə uşaqların vaxtaşırı ambulator müayinəyə və müalicəyə cəlb edilməsi | Qurd invaziyası hallarının azaldılması üçün əhalinin ambulator müayinələrə və müalicəyə cəlb edilməsi məqsədilə , əhali arasında qurd invaziyasına dair maarifləndirici görüşlərin təşkili və müxtəlif maarifləndirici materialların çapı və paylanması, video roliklərin hazırlanması və nümayişi | 2019-2022 | İSİM, ETPİ, RUKX, RGEM |
| | | Qurd invaziyası aşkarlanan uşaqların və onların yaxın kontaktlarının qurd əleyhinə dərman vasitələri ilə təmin edilməsi | 2019-2022 | TYTŞ, İTM, ETPİ, RUKX, RGEM |
| 3.8 (5.3.8) | Uşaqların inkişafının monitorinqi üzrə metodik tövsiyələrin ilkin səhiyyə xidməti müəssisələrində çalışan tibb işçiləri tərəfindən tətbiq edilməsinin təşkili | Uşaqlar arasında inkişaf pozuntularının vaxtından aşkarlanması və profilaktikası məqsədilə Finlandiyanın Tibb Cəmiyyəti, ÜST-nin və digər aparıcı beynəlxalq tibb cəmiyyətlərinin tövsiyələri əsasında ilkin səhiyyə xidməti müəssisələrində çalışan tibb işçiləri üçün metodik tövsiyələrin hazırlanması, çapı və paylanması | 2019-2022 | ETPİ, İSİM, RUKX, ADHTİ, ATU |
| | | Uşaqlar arasında inkişaf pozuntularının vaxtından aşkarlanması və profilaktikası məqsədilə ilkin səhiyyə xidməti müəssisələrində | 2019-2022 | TYTŞ, KETŞ, ETPİ, RUKX, |

| | | | | |
|---|---|---|---|---|
| | | çalışan tibb işçiləri üçün davamlı tibbi təhsil sistemi çərçivəsində müvafiq təlim kurslarının təşkili | | ADHTİ, ATU, İSİM |
| | | Uşaqların inkişafının monitorinqi üzrə metodiki tövsiyələrin elektron portal vasitəsilə əlçatanlığının təmin edilməsi | 2019-2022 | İSİM, ADHTİ, ATU, ETPİ |
| 3.9 (5.3.9) | Tibbi və sosial tədbirlər kompleksinin hazırlanması və həyata keçirilməsi | Həyata keçiriləcək tibbi və sosial tədbirlər kompleksi üzrə prioritet istiqamətlərin müəyyən edilməsi və konkret tədbirlərin həyata keçirilməsinin təmin olunması məqsədilə nazirliklərarası işçi qrupunun yaradılması | 2019 | TYTŞ, İSİM, ETPİ, ATU |
| | | Prioritet istiqamətlər əsasında zəruri tədbirlərin həyata keçirilməsi məqsədilə normativ sənədlərin və tibb müəssisələri üçün müvafiq metodik tövsiyələrin hazırlanması | 2019-2020 | TYTŞ, İSİM, ETPİ, ATU |
| 3.10 (5.3.10) | Yeniyetmələrin psixonevroloji və psixoloji skrininqlərin aparılması | Yeniyetmələr arasında psixonevroloji və psixoloji skrininqlərin aparılması məqsədilə ÜST-ün tovsiyyələrinə əsaslanan metodik tövsiyələrin hazırlanması | 2018-2019 | TYTŞ, İSİM, PSM, ETPİ, RUKX |
| | | Hazırlanmış metodik tövsiyyələr əsasında skrininqi həyata keçirəcək mütəxəssislər üçün davamlı tibbi təhsil sistemi əsasında təlimlərin keçirilməsi təşkili | 2019-2022 | TYTŞ, İSİM, PSM, ETPİ, RUKX |
| | | Yeniyetmələr arasında sui-qəsd, intihar, cinsi istismar və narkomaniya kimi zərərli vərdişlər barəsində maarifləndirici tədbirləri təşkili, məlumatlılıq səviyyəsinin artırılması üçün buklet və digər materialların çapı və paylanması, video roliklərin, elektron mobil əlavələrin və s. hazırlanması və geniş yayılması | 2019-2022 | TYTŞ, İSİM, PSM, ETPİ, RUKX |
| | | Ambulator-poliklinik müəssisələrdə fəaliyyət göstərən psixiatrlar, yeniyetmə kabinetinin həkimləri və digər aidiyyatı tibbi işçiləri üçün seminar və konfransların təşkili, beynəlxalq tədbirlərdə iştirakının təmin edilməsi | 2019-2022 | TYTŞ, İSİM, PSM, ETPİ, RUKX |
| | | **4. Kadr hazırlığı** | | |
| 4.1 (5.4.1) | Uşaqlar arasında nadir hallarda rast gələnən xəstəliklər barədə həkimlər və orta tibb işçiləri üçün seminarların və treninqlərin təşkil edilməsi | Uşaqlar arasında nadir hallarda rast gələnən xəstəliklər barədə həkimlər və orta tibb işçiləri üçün beynəlxalq təcrübəyə əsaslanan seminarların və treninqlərin təşkil edilməsi üçün təlim materiallarının hazırlanması və təlimlərin təşkili | 2019-2022 | İSİM, KETŞ, ADHTİ , TYTŞ, RKUX, ETPİ, BTK |
| | | Uşaqlar arasında nadir hallarda rast gələnən xəstəliklər barədə həkimlər və orta tibb işçiləri üçün təlim keçəcək mütəxəsislərin | 2019-2022 | İSİM, KETŞ, ADHTİ , |

| | | | | |
|---|---|---|---|---|
| | | Beynəlxalq təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiq edilməsi üçün yerli və beynəlxalq konqres və tədbirlərdə iştirakının təmin edilməsi | | TYTŞ, RKUX ETPİ, BTK |
| | | Uşaqlar arasında nadir hallarda rast gəlinən xəstəliklər barədə təlim mövzularının diplomaqədər və diplomdansonrakı tədris proqramlarına daxil edilməsi | 2019-2020 | İSİM, KETŞ, ADHTİ , TYTŞ, RKUX, ETPİ |
| 4.2 (5.4.2) | Uşaqlar arasında xəstəliklərin profilaktikası və müalicəsi, fəsadlarla mübarizə sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və əməkdaşlıq (o cümlədən,yerli mütəxəssislərin xaricdə təlim keşməsi) | Uşaqlar arasında xəstəliklərin profilaktikası və müalicəsi, fəsadlarla mübarizə sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və eləcə də əməkdaşlıq edilməsi məqsədilə yerli mütəxəssislərin xaricdə təlim kurslarına iştirakının təmin edilməsi, eyni zamanda xarici mütəxəssislərin iştirakı ilə təlimlərin təşkili | 2019-2022 | BƏŞ, TYTŞ, KETŞ, RUKX, ETPİ, ATU, ADHTİ |
| 4.3 (5.4.3) | Uşaqların dispanserizasiyasını həyata keçirən, xüsusilə də ilkin səhiyyə xidməti müəssisələrində çalışan tibb işçilərinin hazırlıq səviyyəsinin yüksədilməsi məqsədi ilə müasir tibbi təhsil proqramlarının tətbiqi | Uşaqların dispanserizasiyasını həyata keçirən, xüsusilə də ilkin səhiyyə xidməti müəssisələrində çalışan tibb işçilərinin hazırlıq səviyyəsinin yüksədilməsi məqsədi ilə müasir tibbi təhsil proqramlarının tətbiq edilməsi üçün beynəxalq təcrübənin öyrənilməsi | 2019 | TYTŞ, KETŞ, ATU, ADHTİ,İSİM, ETPİ |
| | | Uşaqların dispanserizasiyasını həyata keçirən, xüsusilə də ilkin səhiyyə xidməti müəssisələrində çalışan tibb işçilərinin hazırlıq səviyyəsinin yüksədilməsi məqsədi ilə müasir tibbi təhsil proqramlarına əsaslanan müasir, o cümlədən, elektron və tele-təbabət metodlarına əsaslanan təlim proqramların tərtib edilməsi və onların davamlı tibbi təhsil sistemi çərçivəsində tətbiqi | 2019-2022 | TYTŞ, KETŞ, ATU, ADHTİ,İSİM, ETPİ |
| 4.4 (5.4.4) | Uşaqlarda inkişaf pozuntularının erkən aşkarlanması və erkən müdaxilə sahəsində həkimlər və orta tibb işçiləri üçün seminarların və treninqlərin təşkil edilməsi | Uşaqlarda inkişaf pozuntularının erkən aşkarlanması və erkən müdaxilə sahəsində çalışan həkimlər və orta tibb işçiləri üçün beynəlxalq mütəxəssislərin iştirakı ilə təlimlərin təşkili; milli mütəxəssislərin beynəlxalq təlim və seminarlarda iştirakının təmin edilməsi | 2018-2022 | TYTŞ, KETŞ, ATU, ADHTİ, İSİM, ETPİ, BTK |
| | | **5. İcbari dispanserizasiya sahəsində maarifləndirmə** | | |
| 5.1 (5.5.1) | İcbari dispanserizasiyasının uşaqların sağlamlığının | İcbari dispanserizasiyanın əhəmiyyətinə dair videoroliklərin hazırlanması, bukletlərin, plakatların və digər əyani | 2018-2022 | TYTŞ, İSİM, MX |

| | | | | |
|---|---|---|---|---|
| | qorunmasında roluna dair video materiallarin hazırlanması, bukletlərin, plakatların və digər əyani vəsaitlərin çap etdirilməsi | vasitələrin çap edilməsi və əhali arasında yayılmasının təmin edilməsi məqsədilə maarifləndirici tədbirlərin keçirilməsi | | |
| 5.2 (5.5.2) | Təhsil müəssisələrində təhsilalanlar arasında dispanserizasiyasının mahiyyəti barədə maarifləndirmə işinin aparılması | Təhsil müəssisələrində təhsilalanlar arasında dispanserizasiyasının mahiyyəti barədə maarifləndirmə işinin aparılması məqsədilə mütəxəssislərin iştirakı ilə mühazirələrin keçirilməsi və görüşlərin təşkili | 2018-2022 | İSİM, ETPİ, RUKX |
| 5.3 (5.5.3) | Uşaqların dispanserizasiyaya cəlb edilməsi məqsədi ilə əhali arasında xəstəliklərin risk amillərinə dair müvafiq mövzular üzrə maarifləndirmə işinin həyata keçirilməsi | Uşaqların dispanserizasiyaya cəlb edilməsi məqsədi ilə əhali arasında xəstəliklərin risk amillərinə dair müvafiq mövzular üzrə maarifləndirmə işinin həyata keçirilməsi məqsədilə valideynlər, müəllimlər və digər icma nümayəndələrinin iştirakı ilə müxtəlif tədbirlərin təşkili | 2018-2022 | TYTŞ, İSİM, MX, ETPİ |
| | | Maarifləndirmə işinin effektivliyinin artırılması məqsədilə KİV ilə əməkdaşlığın genişləndirilməsi, müxtəlif TV və radio verilişlərinin təşkili | 2018-2022 | TYTŞ, İSİM, MX |
| | | Uşaqların dispanserizasiyaya cəlb edilməsi məqsədilə sosial media imkanlarından və mobil əlavələrdən istifadə etməklə maarifləndirmə işinin aparılması | 2018-2022 | TYTŞ, İSİM, MX |
| 5.4 (5.5.4) | Dispanserizasiya məqsədi ilə müayinələr aparılan zaman uşaqlar və valideynlər arasında sağlam həyat tərzi, xəstəliklərin risk amilləri və xəstəliklərin erkən simptomları üzrə maarifləndirmə materiallarının yayılması | Sağlam həyat tərzi, xəstəliklərin risk amilləri və xəstəliklərin erkən simptomları üzrə maarifləndirmə materiallarının hazırlanması, uşaq və valideynlər arasında paylanması, habelə video roliklər və mobil əlavələrin hazırlanaraq sosial media və KİV vasitəsilə yayılması | 2018-2022 | TYTŞ, İSİM, MX |

**TYTŞ**-Tibbi yardımın təşkili şöbəsi

**İSİ**-İnformatika və Statistika İdarəsi

**İSİM**-İctimai Səhiyyə və İslahatlar Mərkəzi

**SİM**-Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi

**ETPİ**-Elmi Tədqiqat Pediatriya İnstitutu

**RUKX**-Respublika Uşaq Klinik Xəstəxanası

**ADHTİ**- Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu

**BBSİ**-Bakı Baş Səhiyyə İdarəsi

**RGEM**-Respublika Gigiyeva və Epidemiologiya Mərkəzi

**İTM**-İnnovasiya və Təhcizat Mərkəzi

**ATU**-Azərbaycan Tibb Universiteti

**PSM**-Psixi Sağlamlıq Mərkəzi

**KETŞ**-Kadr, Elm və Təhsil şöbəsi

**BTK**-2 nömrəli Baza Tibb Kolleci

**MX**-Mətbuat Xidməti

**BƏŞ**-Beynəlxalq Əlaqələr Şöbəsi